**Nazpəri Mustafayeva**
**ADU-nun 3-cü kurs tələbəsi**

## ŞƏHİD ANASI

Qəlbi qan ağlayan ana,
Oğlun ilə fəxr elə.
Gətirdiyin bu cahana,
Qurban gedib yurda, elə.

Düşünmə ki, bu halını,
Kimlərsə anlamır, duymur.
Analar oğul payını,
Gözündən uzağa qoymur.

Oğul düşmən çəpəridi,
O sinəsin verir önə.
Şəhid olur - ölümsüzlük,
Çıxarır yurdu ağ günə!

Ürək yaran mənə doğma,
Mətin ol, şəhid anası!
Al bayrağı Qarabağa,
Sancaq sağalsın yarası.

## QARABAĞ

Çəkib məni aparır,
Xəyalım Qarabağa.
Gəzdikcə izim düşür,
O əsir qarlı bağa.

O yurda getmək üçün,
Torpağın öpmək üçün.
Yolunda ölmək üçün,
Özümü verrəm qabağa!

Ağdam ulu şəhərim,
Bu gün qəmim, qəhərim,
Açılacaq səhərim,
Dönəcəm Qarabağa!

Ədalət 2019.- 26 aprel.- S.8.